

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 135 (21.287)

*11 iyul 2015-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvanda iftar mərasimi keçirilmişdir





Muxtar respublikada İslam dəyərlərinə hörmət və ehtiramla yanaşılır. Bu gün Naxçıvanda tarixi-dini abidələr, ziyarətgahlar əsaslı şəkildə yenidən qurulur, xalqımızın əsrlər boyu formalaşmış dini-mənəvi dəyərlərinə bağlılıq nümayiş etdirilir. Cəmiyyətdə humanizmin və həmrəyliyin təntənəsinə çevrilən Ramazan ayı da hər il insanlar tərəfindən mərhəmət duyğuları ilə qarşılanır, oruc tutulur, iftar süfrələri açılır.

İyulun 9-da Naxçıvan şəhərindəki "Təbriz" restoranında iftar süfrəsi açılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov iftar mərasimində çıxış edərək demişdir: Ramazan xeyirxah niyyətlər, mənəvi kamillik və saflıq ayıdır. Müqəddəs kitabımız "Qurani-Kərim"in tamamlandığı, dünya müsəlmanlarının həmrəylik və qardaşlıq ayı olan Ramazanın fəziləti çoxdur. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***"Ramazan ayı dünya xalqlarının mənəviyyatı tarixinə böyük təsir göstərmiş mübarək aylardan biridir. Sülhün, əmin-amanlığın, qardaşlığın bərqərar edilməsinə dəvət edən İslam dininin bu müqəddəs ayında müsəlmanlar humanist prinsiplərin təntənəsi naminə hər cür sınaqlara sinə gərmək qabiliyyətlərini nümayiş etdirirlər".***

İslami dəyərləri yaşadan digər müsəlman xalqlar kimi, Azərbaycan xalqı da tarixin bütün dövrlərində öz milli və dini dəyərlərinə sadiq qalmış, adət-ənənələrini yaşatmışdır. Bu gün də dini dəyərlərimiz qorunur və yaşadılır. Ramazan ayı hər il ölkəmizdə, eləcə də Naxçıvan Muxtar Respublikasında əmin-amanlıq və sabitlik şəraitində qarşılanır.

Ali Məclisin Sədri müqəddəs Ramazan ayında məqsəd və niyyətlərin həyata keçməsini arzulamış, muxtar respublikanın bütün əhalisini qarşıdan gələn Ramazan bayramı münasibətilə təbrik etmişdir.

Mərasimdə "Qurani-Kərim"dən ayələr oxunmuş, dualar səslənmişdir.

Həmin gün Naxçıvan Muxtar Respublikası Ağciyər və Psixi Xəstəliklər dispanserlərində, Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzində, Naxçıvan Qarnizonunun Hərbi Hospitalında müalicə alan xəstələr və gecə növbəsində çalışan işçilər üçün də iftar süfrələri açılmışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Ulu öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişinin 46-cı ildönümü qeyd olunub



Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatında keçirilən tədbirdə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayevin "1969-cu ildən başlanan zəfər yolu" adlı məruzəsi dinlənilmiş, məruzə ətrafında müzakirələrdə Yengicə və Maxta kənd tam orta məktəblərindəki ilk partiya təşkilatlarının sədrləri Elmira Rzayeva və Musa Şirəliyev, partiya fəalı Teymur Abbasov və digərləri çıxışlar etmişlər.

Qeyd edilmişdir ki, ötən əsrin altmışıncı illərinin sonunda Azərbaycandakı vəziyyət o həddə çatmışdı ki, ciddi dəyişikliklərə zəruri ehtiyac yaranmışdı. Əks təqdirdə, respublika daha dərin uçuruma düşə bilərdi. 1969-cu il iyul ayının 14-də xalqımızın böyük oğlu Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi ilə respublika özünün yeni inkişaf mərhələsinə qədəm qoydu.

O vaxtlar Moskvanın Azərbaycana açıq-aşkar ögey münasibətinə baxmayaraq, Heydər Əliyev bütün maneələri böyük məharətlə aradan qaldıra bildi. Nəticədə, baş alıb gedən tənəzzülün qarşısı alındı, ictimai-siyasi, sosial-mədəni həyatın bütün sahələrində inkişaf dövrü başlandı. Həmin dövrdə Azərbaycan, sözün həqiqi mənasında, nəhəng tikinti meydanını xatırladırdı. Şəhər və rayonlarda böyük emal və istehsal kompleksləri, fabrik və zavodlar, səhiyyə və mədəniyyət müəssisələri, məktəblər, inzibati binalar, saysız-hesabsız yaşayış evləri, yollar, istirahət parkları, mehmanxanalar tikildi. Kənd təsərrüfatı gəlirli sahəyə çevrildi, heyvandarlıq məhsulları istehsalının artırılması istiqamətində tədbirlər həyata keçirildi. Nəhəng meliorativ qurğular yaradıldı.

Respublika az vaxt ərzində aparılan ciddi islahatlar, həyata keçirilən təşkilati tədbirlər nəticəsində sənaye ölkəsinə çevrildi, metallurgiya, maşınqayırma, energetika, elektronika, kimya və neft-kimya sənayesi sahələri yaradıldı. Beləliklə, Azərbaycan inkişafın sürətinə görə SSRİ-də ən qabaqcıl müttəfiq respublikaya çevrildi. Bunun üçün görkəmli dövlət xadimi Heydər Əliyev qarşısına, ilk növbədə, Azərbaycan xalqının mənəviyyatının, milli-mənəvi dəyərlərinin, respublikanın mənəvi-psixoloji mühitinin ciddi şəkildə dəyişdirilməsi vəzifəsini qoymuşdu və gənc, qətiyyətli, enerjili lider bu istəyinə çatdı. O, son dərəcə işgüzar və ziyalı bir rəhbər kimi zəifləmiş iqtisadiyyata yeni nəfəs gətirə bildi, Azərbaycanın nüfuzunu yüksəltməyə nail oldu. Respublikamızda dirçəliş, tərəqqinin, milli-mədəni intibahın əsası qoyuldu.

Qeyd olunmuşdur ki, Heydər Əliyev fenomeninə hansı prizmadan yanaşırsan yanaş, nəticə həmişə eyni olacaq: dahi şəxsiyyətin bütün fəaliyyəti yalnız milli intibaha, böyük, müstəqil Azərbaycan Respublikasına aparan yolun ən vacib mərhələləridir. Hazırkı zaman zirvəsindən baxanda 14 iyul gününün tarixi əhəmiyyəti daha aydın görünür. İqtisadiyyatın, sosial həyatın, elmin, mədəniyyətin inkişaf etdirilməsini, əhalinin həyat tərzinin yaxşılaşdırılmasını, mövcud olan neqativ halların aradan qaldırılmasını qarşısına məqsəd qoyan ulu öndər bu yolda xalqına arxalanırdı. Heydər Əliyev-Azərbaycan, Azərbaycan-Heydər Əliyev vəhdəti də məhz o illərdə yaranmışdır.

Sonda vurğulanmışdır ki, görkəmli siyasi xadimin Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıdışından sonra müstəqilliyimizin dönməzliyi və əbədiliyi təmin edildi. Bu uzaqgörən siyasətin ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən ardıcıllıqla və yaradıcılıqla həyata keçirilməsi nəticəsində respublikamız öz mövqelərini və müstəqilliyini günü-gündən daha da möhkəmləndirir. İllər ötdükcə, zaman dəyişdikcə Heydər Əliyev siyasətinin Azərbaycanımızın dünəni, bu günü və sabahı üçün necə böyük imkanlar açdığını, necə əzəmətli uğurlar üçün təməl yaratdığını işıqlı və parlaq günlərimizdə daha aydın görürük.

**Elman MƏMMƏDOV**

***İyulun 10-da Naxçıvan Dövlət Texniki Kollecində "1969-cu ilin 14 iyulu: Azərbaycanın Azərbaycana qayıtdığı gün" mövzusunda konfrans keçirilib.***



Konfransda Naxçıvan Dövlət Texniki Kollecinin direktor əvəzi, kənd təsərrüfatı elmləri üzrə fəlsəfə doktoru Asəf Ruşanovun, kollecin müəllimlərindən Süreyya Ələkbərovanın, Allahverdi Cabbarovun, Xəzər Hüseynovun məruzələri dinlənilib.

Bildirilib ki, ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərliyinin birinci dövrü milli özünüdərkin oyanmasının, soy-kökə qayıdışın başlanğıc dövrüdür. Görkəmli dövlət xadiminin bütün fəaliyyəti xalqın milli dirçəlişi, milli qürur hislərinin oyanması ideyasına əsaslanırdı. Böyük şəxsiyyət həmin dövrdə bütün ideoloji-siyasi manеələrə sinə gərərək Azərbaycan xalqının milli inkişaf konsepsiyasını irəli sürmüş, ictimai şüurdakı qorxunu aradan qaldırmağı, cəmiyyəti bütün sahələr üzrə gələcək mənəvi və iqtisadi yüksəlişlərə ruhlandırmağı bacarmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov ötən əsrin 70-80-ci illərində Azərbaycanın gələcəyi naminə həyata keçirilən tədbirləri belə xarakterizə etmişdir: "Tarixilik baxımından olduqca qısa bir müddətdə – cəmi 14 il ərzində Azərbaycan ittifaq iqtisadiyyatının xammal və aqrar əlavəsindən müxtəlif sahələrdə hərtərəfli inkişafa qovuşan nəhəng infrastruktur ölkəsinə çevrildi. Bu dövrdə Azərbaycanın gələcək müstəqilliyi üçün atılan addımlar, həyata keçirilən məhsuldar fəaliyyət Heydər Əliyev quruculuq xəttinin fəlsəfəsini təşkil edirdi. Bu da ondan ibarət idi ki, Azərbaycan qısa müddətdə öz tarixi taleyinin sahibi oldu; ölkəmiz başqa müttəfiq respublikaların 50 ilə keçdiyi yolu nəinki 14 ilə qət etdi, hətta bu respublikaları da qabaqlayaraq aqrar-sənaye kompleksinin güclü inkişaf etdiyi lider respublika kimi şöhrət qazandı".

Qeyd olunub ki, 1969-cu ildən başlanan kompleks quruculuq işləri Azərbaycanın digər regionları ilə yanaşı, Naxçıvan Muxtar Respublikasını da əhatə etmişdi. Muxtar respublikada sənaye, tikinti-quruculuq və aqrar-sənaye kompleksinin inkişafına nail olunmuş, emal və hasilat şəbəkəsi genişlənmişdi. Naxçıvan şəhərində şüşə və alüminium qablar zavodları, alt trikotaj fabriki, tütün-fermentasiya və ət-süd kombinatları, Ordubad və Şərur rayonlarında konserv zavodları tikilərək istismara verilmişdi. Ümumilikdə, regionun inkişaf perspektivlərini artırmaq məqsədilə 250-dən çox müxtəlif təyinatlı müəssisələr yaradılmış, əhalinin işlə təminatına və sosial rifahının yaxşılaşdırılmasına nail olunmuş, hər il Naxçıvan şəhərində və rayon mərkəzlərində 35 min kvadratmetr yaşayış sahəsi istifadəyə verilmişdir. Muxtar respublikanın şəhər, rayon və kəndlərində məktəb binaları, xəstəxanalar, suvarma tədbirlərini yaxşılaşdırmaq məqsədilə 20-dən artıq su anbarı tikilmişdir. Əgər o illərdə muxtar respublikamızın hərtərəfli sosial-iqtisadi inkişafına nail olunmasaydı, Ermənistanla sərhəddə yerləşən bu ərazi zaman-zaman boşaldılacaq və ermənilərin işğalına məruz qalacaqdı. Ümummilli liderimiz bu məkrli planın qarşısını məharətlə almışdı.

Məruzələrin slaydlarla müşayiət olunduğu konfransda məruzələr ətrafında çıxışlar olub.

**Səbuhi HÜSEYNOV**

# Unudulmaz Naxçıvan təəssüratlarım



İFTİXAR
*Sənətşünaslıq üzrə fəlsəfə doktoru,*
*Əməkdar mədəniyyət işçisi*

C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında tamaşaya hazırlanmış, müəllifi olduğum "Qurtuluş dastanı" adlı əsərimin premyerasında iştirak etmək üçün aldığım dəvətə əsasən 14-16 iyun 2015-ci il tarixində Naxçıvan Muxtar Respublikasına getdim.

Hava limanına düşdüyüm andan gördüyüm mənzərə məni valeh etdi. Sanki nağıllar aləmindəydim. Çıxışda dayanıb ətrafı xeyli seyr etmək məcburiyyətində qaldım. İnsan əli ilə yaradılan, ətrafı qoynuna almış yamyaşıl qazonlar və gül-çiçəklə əhatə olunmuş təbiət gözəlliyi içində nizamla cərgələnmiş taksilər, uniforma geyinmiş taksi sürücülərinin son dərəcə kübar davranışları, qarşılayanların ruha rahatlıq gətirən təbəssümləri, gözoxşayan səliqə-sahman və sair ürəkaçan bir ovqat yaradırdı.

Heç bir mübaliğəsiz demək olar ki, sezilən hər şey könül oxşayırdı.

İrəliləyən anlarda müşahidə etdiyim, aydınca görünməyə başlayan muxtar respublikada yaradılan nümunəvi idarəçilik, hər tərəfdə qanunların aliliyinə hörmətlə yanaşma, sakit və firavan həyat tərzi insanda yüksək təəssürat yaradırdı.

Ekoloji təmizliyi, ciyərlərə məlhəm olan tərtəmiz havanı, ətrafı ağuşuna almış yaşıllığı, küçələrboyu gözoxşayan gözəlliyi, yaraşıqlı binaları, yaşamaq üçün rahat və sakit mühiti, müsbət auranı, istər Naxçıvana gələn qonaqlarla, istərsə də yerli insanların bir-biri ilə son dərəcə mehriban davranışı, isti və gülərüz münasibəti gördükdə düşünürsən ki, müstəqilliyimizin bizə bəxş etdiyi, ölçülərə sığmayan nə qədər böyük uğurlara nail olmuşuq. Bu uğurların Naxçıvan modeli nümunə üçün istənilən inkişaf etmiş ölkələrə nümayiş etdirilə bilər. Bütün bunlar, həqiqətən də, heyranedici, qürurvericidir və heç şübhəsiz ki, heç vaxt mənim yaddaşımdan silinməyəcəkdir!..

15 İyun Milli Qurtuluş Günündə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri hörmətli Vasif Talıbovun tamaşaya baxarkən, ünsiyyət üçün yaratdığı zaman kəsiyində dəyərli söhbətindən gəldiyim qənaət, mənə rastlaşdığım bütün ruh oxşayan mənzərənin qaynağını aydın etdi. Allahın böyüklüyü, xalqına, dövlətinə sədaqət və məhəbbət haqqında hörmətli Sədrin söylədiyi fikirlərin könlümdə yaratdığı yüksək hislər toplusu ürək dolu çırpıntılarla yaddaşımda özünə mötəbər yer tutdu.

Tamaşa öncəsi və tamaşadan sonra təbrik üçün aktyorlarla pərdəarxası görüşü zamanı bildirdiyi fikirlər isə əsl teatrşünas rəyinə bərabər idi. Hörmətli Vasif müəllimin söylədiyi dəyərli fikirlərin bir neçəsini vurğulamaq istəyirəm: – "...Təbrik edirəm!.. Hamınızı – müəllifi də, rejissoru da, musiqi tərtibatçısını da, aktyorları da... böyük zəhmət çəkilib... Əsər mükəmməldir, həqiqəti tərənnüm edir... Ədəbi əsərlər tarixi tarixi sənədlərdən daha yaxşı yaşada bilir... Bu bədii əsərdə də tarix olduğu kimi öz əksini tapıb... Ancaq onu da demək lazımdır ki, əsər mükəmməl ola bilər, lakin rejissor yozumu, aktyor oyunu qənaətbəxş olmasa, əsər də zəif görünər. Bu əsər yüksək bədii keyfiyyətə malik olduğu kimi, rejissor işi və aktyorların oyunu da peşəkarlıqla təqdim olunur... Müəllifin uğuru bir də ondadır ki, əsərə çox gərəkli epiloq verməşdir. Bu epiloq əsərin mahiyyətini tam ifadə edir..." Hörmətli Vasif Talıbovun dəyərli fikirləri müəllif olaraq məni də, teatrın yaradıcı heyətini də, ümumən teatrın kollektivini də hədsiz dərəcədə sevindirdi. Epiloqla bağlı söylədiyi fikir isə həqiqətən də, tamaşanın mahiyyətini tam ifadə edən, adi bir tamaşaçının görə bilməyəcəyi müəllif yanaşmasına aydınlıq gətirən, ədəbiyyatı və teatrı dərindən bilən mütəxəssis təhlili idi.

Naxçıvan rəhbərliyinin teatr sənətinə, onun yaradıcılarına belə yüksək münasibəti bir mədəniyyət xadimi kimi məndə böyük qürur hissi yaratdı.

Naxçıvanda olduğum müddət ərzində müxtəlif yerlərin gəzintisində oldum. Gəzinti zamanı diqqətimi çəkən muzeylər şəbəkəsi məni heyran etdi. Dünyanın heç bir ölkəsinin muzeylərində görmədiyim mənzərə ilə Naxçıvan muzeylərində rastlaşdım. Deməliyəm ki, Naxçıvanın özü, bütövlükdə, açıq səma altında zövqlə yaradılmış unikal bir muzeydir. "Naxçıvan qalası" isə tariximizin parlaq səhifələrindən biri kimi Naxçıvanın, naxçıvanlıların və ümumən Azərbaycanın qürur mənbəyi kimi çox qiymətlidir. Odur ki, diqqətimi həddindən artıq cəlb edən Naxçıvan muzeyləri barədə bir qədər geniş şəkildə söz açmaq istəyirəm.

Öncə ulu öndər Heydər Əliyevin 80-ci illərdə Naxçıvanda ucaldılmış əzəmətli büstünü, daha sonra isə o böyük şəxsiyyətin həyat və fəaliyyətini özündə yaşadan muzeyi ziyarət etdim. Heç şübhəsiz ki, büstün ziyarəti zamanı, 80-ci illərin ikinci yarısında Naxçıvana Akademik Milli Dram Teatrının heyəti ilə qastrol səfərinə getdiyim illərdə dəfələrlə büstü ziyarət etdiyimiz anları xatırladım. Muzeydə isə şahid olduğum mənzərə bu oldu ki, 10 may 1999-cu ildən fəaliyyət göstərən bu muzey şəxsi sənəd və materiallar baxımından zənginliyinə görə Heydər Əliyevə aid olan heç bir muzeylə müqayisə edilə bilməz. Muzeydə "Xalqımla həmrəyəm", "Qayıdış", "Naxçıvan yaşayır və döyüşür" bölmələri xüsusi diqqət çəkir. Eksponatlarla tanış olarkən bələdçiyə Bakıya döndükdən sonra 2000-ci ildə, Tiflis Azərbaycan Dövlət Dram Teatrının Bərpa rəhbəri olduğum müddətdə ulu öndərlə Tiflis şəhərində çəkilmiş tarixi şəkli və həmişəyaşar ümummilli liderimizin əbədiyyətə qovuşduğu gün, ürəyimin səsi, könlümün diktəsi və ruhumun sevgisi ilə yazdığım və 2003-cü ilin 17 dekabr tarixində qəzet səhifələrində çap olunmuş "Xalq atası Heydər Əliyevin işıqlı ruhuna ehtiramla" adlı məqaləmi muzeyə hədiyyə edəcəyimə söz verdim.

Burada belə bir məlumat öyrəndim ki, Naxçıvanda, istər mərkəzdə, istərsə də bölgələrdə dövlət orqanlarında çalışan bütün əməkdaşlar hər həftənin şənbə günü kollektiv şəkildə müxtəlif məzmunlu muzeyləri ziyarət edirlər. Bu haqda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun xüsusi sərəncamı mövcuddur. Bu sərəncam çox səmərəli bir mahiyyətə malikdir. Biz böyük siyasi məktəb yaratmış Heydər Əliyev dühasından həmişə öyrənməli və onun xalqımıza miras qoyduğu işıqlı yolun səmtini heç vaxt dəyişməməliyik və xalqımızın mütləq qüdrəti yalnız və yalnız bu hikmətə bağlıdır. Xalq öz tarixini mükəmməl öyrənmək üçün muzeylərimizi dönə-dönə ziyarət etməli, hər dəfə ziyarət edərkən muzey eksponatları vasitəsi ilə tariximizə aid olan yeni-yeni ilmələr, çalarlar haqqında dərin məlumat toplamaq imkanı qazanmalıdır. Heç şübhəsiz ki, belə əhəmiyyətli sərəncamın icra edilməsi məndə də bir vətəndaş olaraq qürur hissi yaradır.

1924-cü ildə təşkil olunmuş, 1968-ci ildə dövlət statusu verilmiş Naxçıvan Dövlət Tarix Muzeyi 48 mindən artıq eksponatın mühafizə olunduğu muzeydir. Naxçıvan Muxtar Respublikası ərazisində aparılmış arxeoloji qazıntılar zamanı aşkara çıxarılmış maddi-mədəniyyət, tətbiqi sənət nümunələri, qədim numizmatika materialları, həmçinin milli geyimlər, bədii tikmə nümunələri və xalça məmulatları, qiymətli metallardan hazırlanmış zinət, məişət əşyaları, rəssamlıq əsərləri və sair nümayiş etdirilir. Həmçinin muzeydə elmi-tədqiqat işləri aparılır.

Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş naxçıvanlıların xatirəsini əbədiləşdirmək məqsədilə 2000-ci ildə yaradılmış Xatirə Muzeyində Naxçıvan şəhidlərinin fotoşəkilləri, şəxsi sənədləri, döyüş fəaliyyətlərini əhatə edən materiallar, eyni zamanda Azərbaycan Respublikasının Milli qəhrəmanları və Sovet İttifaqı qəhrəmanlarının fotoşəkilləri, şəxsi əşyaları və onlara aid olan digər materiallardan ibarət 1800-dən artıq eksponat qorunub saxlanılır və nümayiş etdirilir.



1998-ci ilin aprelində təşkil olunmuş, Azərbaycanın bütün xalça növlərinin, xalça məmulatlarının, məişət əşyaları – mis məcməyilər, saxsı və çini qablar, qədim kişi və qadın milli geyimlərinin nümayiş etdirildiyi Naxçıvan Dövlət Xalça Muzeyi 2010-cu ildən Heydər Əliyev prospektindəki yeni binaya köçürülüb. 2013-cü ildə isə yenidənqurmadan sonra muzeyin ekspozisiyası zənginləşdirilmiş və internet saytı hazırlanmışdır.

2002-ci ildə Naxçıvan şəhərindəki "Əcəmi seyrəngahı"nda təşkil olunmuş Açıq Səma Altında Muzeydə Naxçıvan Muxtar Respublikasının ərazisindən tapılmış müxtəlif dövrlərə aid qoç heykəllər, daş kitabələr, müxtəlif daş fiqurlardan və qəbirüstü sənduqələrdən ibarət 450 maddi-mədəniyyət nümunəsi mühafizə və nümayiş etdirilir.

Məşhur Azərbaycan memarı Əcəmi Naxçıvaninin şah əsəri və Naxçıvan-Marağa memarlıq məktəbinin ən dəyərli abidələrindən biri hesab olunan Möminə xatın türbəsi həmin kompleksdən dövrümüzə çatmış yeganə misilsiz abidədir. Əcəmi Naxçıvaninin dövrümüzə çatmış ən gözəl əsəri olan Möminə xatın türbəsi bu gün də orta əsrlər Naxçıvan şəhərinin əzəmətini əks etdirir.

Bu abidələr təkcə varlığımızı və dövlətçiliyimizi yaşatmırlar, onlar həm də zaman-zaman ölkəmizin iqtisadi qüdrətini özlərində təcəssüm etdirirlər. Xalqımızın ümummilli lideri Heydər Əliyev də dönə-dönə deyirdi: "Dünyada böyük dövlətlər var, amma böyük abidələr yarada bilmirlər..."

Muzey kolleksiyası sırasında muxtar respublikada Naxçıvan torpağında doğulmuş Azərbaycanın böyük şəxsiyyətlərindən yazıçı C.Məmmədquluzadə və M.S.Ordubadinin, şair və dramaturq H.Cavidin, akademik Y.Məmmədəliyevin, hərbi xadim C.Naxçıvanskinin və rəssam B.Kəngərlinin ev-muzeyləri də fəaliyyət göstərir.

Mənə Azərbaycanın böyük şairi və dramaturqu Hüseyn Cavidin əzəmətli məqbərəsini də ziyarət etmək nəsib oldu. Heydər Əliyevin şəxsi təşəbbüsü və himayəsi ilə inşa edilmiş məqbərəni ziyarət edərkən istər-istəməz həmişə qürurla adını uca tutduğum sevimli müəlliməm, mərhum Turan xanımı xatırladım. Mənim üçün böyük Hüseyn Cavidin ömür yoldaşı Müşgünaz xanım və sevimli qızı Turan xanım Azərbaycanın ideal qadınlarının nümunə rəmzləri sırasındadırlar.

Azərbaycanın ayrılmaz bir parçası olan bu diyar bəşər sivilizasiyasının, mədəniyyətinin başlanğıc nöqtələrindən biridir. Bu qədim və keşməkeşli tarixi isə sübut edən mənbələr, amillər də çoxdur: ilk insanların yaşadıqları mağaralar, qədim yaşayış yerləri, erkən şəhər mədəniyyəti, möhtəşəm qala divarları, qayaüstü rəsmlər, daşdan qoç heykəlləri, xatirə memarlığının ən mükəmməl nümunələri olan memarlıq inciləri və sair.

Məlumdur ki, Naxçıvan xanlığının fəaliyyəti Azərbaycanın dövlətçilik tarixində mühüm yer tutur.

Muxtar respublika Ali Məclisi Sədrinin 2010-cu il 23 oktyabr tarixli Sərəncamı ilə "Xan diki" deyilən ərazidə "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyi yaradılıb. İndiyədək "Xan evi" kimi tanınan sarayda böyük həcmdə əsaslı təmir və yenidənqurma işləri aparılıb. Maraqlı olan cəhət bundan ibarətdir ki, Naxçıvanda bütün muzeylərə olan qayğı və diqqət yüksək səviyyədə öz həllini tapmışdır.

Naxçıvanın simvollarından biri də "Duzdağ"dır. Bu dağ ölkəmizdə təkcə saf və təmiz duzuna görə deyil, həm də şəfaverici xüsusiyyətinə görə tanınıb. Deyilənə görə, hələ 6 min il əvvəl – Nuh-Nəbi dövründən buradan duz çıxarılıb. Şöhrəti dünyaya səs salan "İpək yolu"ndan əvvəl Naxçıvan ərazisindən Yaxın Şərq ölkələrinə "Duz yolu" uzanıb. Həmin ölkələrə buradan duz daşınıb. Qədim Naxçıvanın ən möcüzəli yerlərindən biri olan "Duzdağ"ın hər bir qarışında sirli-sehrli tarixin izləri gizlənib. Nə xoş ki, mənə də "Duzdağ"ın əfsunlu möcüzəsini öz gözlərimlə görmək qisməti nəsib oldu.

Deməliyəm ki, mən bu gün də bütün bu gəzintilərin, ziyarətlərin təsiri altındayam və inanıram ki, bu xoş xatirələr, təəssüratlar ömrüm boyu unudulmayacaqdır.

15 iyun tarixində, axşam Milli Qurtuluş Günü münasibətilə təşkil olunmuş bayram konsertində iştirakım zamanı isə daha könülaçan bir mənzərənin – rəhbərliklə xalq arasındakı sevgi dolu bağlılığın şahidi oldum. Cənab Sədrin tribunada deyil, xalqın arasında yer tutaraq böyük zövqlə konserti seyr etməsi, sevincini xalq sevincinə qatması, zənnimcə, yalnız və yalnız könlündə həmişə xalq sevgisi yaşatmış Heydər Əliyev siyasi məktəbinin layiqli nümayəndəsinin səmimiyyətinin təzahürü kimi dəyərləndirilmişdir.

Anlaşılan odur ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin xalq sevgisi, xalq məhəbbəti, Azərbaycançılıq məfkurəsi Naxçıvanda bütün dolğunluğu ilə ifadə olunmaqdadır!

Naxçıvan baxılan bütün nöqtələrdən o qədər cazibədardır ki, insan orada yaşamaq həvəsinə gəlir!..

Heç şübhə etmirəm ki, gördüklərim mütləq gələcək yaradıcılığımda öz əksini bütün dolğunluğu ilə tapacaqdır.

Naxçıvan təəssüratlarımı əziz oxucularla bölüşərkən onu da qeyd etməliyəm ki, "Qurtuluş dastanı" əsərim Naxçıvanda tamaşaya hazırlanmadan öncə Naxçıvan Muxtar Respublikası rəhbərliyinin diqqət və qayğısı ilə "Əcəmi" nəşriyyatı tərəfindən kitab şəklində iki formada çap olunmuşdur. Əsərimin kitab şəklində çapına, Naxçıvan teatrının da səhnəsində özünə yer tutmasına və uğurla tamaşaçılara təqdim olunmasına, müəllif olaraq premyerada iştirakıma yaradılan yüksək şəraitə və göstərilən böyük qayğıya görə sevimli naxçıvanlılara, xüsusən Naxçıvan rəhbərliyinə dərin minnətdarlığımı oxucularla bölüşməkdən qürur duyur, Naxçıvandan aldığım təəssüratların poetik təcəssümünü belə ifadə edirəm:

***Dünya dəyişdikcə dəyişdi zaman,***
***Al-əlvan geyindi hər tərəf, hər yan.***
***Nurlu insanların memarlığıyla,***
***Dünyaya yenidən doğdu Naxçıvan!***

525-ci qəzet,
30 iyun 2015-ci il

## Oğullar əsgər gedir

***Dünən Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Ordubad Rayon Şöbəsində gənclərin müddətli həqiqi hərbi xidmətə yola salınması mərasimi keçirilib. Mərasimi giriş sözü ilə şöbənin rəisi, mayor Vüqar Rəhimli açıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.***

Mərasimdə Ordubad Rayon İcra Hakimiyyətinin şöbə müdiri Etibar İsmayılov, Təhsil Şöbəsinin əməkdaşı Əyyar Səfərov çıxış edərək bu əlamətdar hadisə münasibətilə çağırışçıları, onların valideynlərini təbrik ediblər.

Valideyn Rövşən Hüseynov ordu sıralarına yola düşən gənclərə xoş arzularını çatdırıb, övladının hərbi xidmətə yollanmasından böyük qürur hissi keçirdiyini deyib.

Çağırışçılar adından çıxış edən Vüqar Hüseynov Vətənə şərəflə xidmət edəcəklərinə, komandirlərinin tapşırıqlarını can-başla yerinə yetirəcəklərinə söz verib.

Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Ordubad Rayon Şöbəsinin rəisi, mayor Vüqar Rəhimli çıxışında deyib ki, ölkə başçısı cənab İlham Əliyev 2015-ci il 29 may tarixində “Azərbaycan Respublikası vətəndaşlarının 2015-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında” Sərəncam imzalayıb. Sərəncama əsasən, 1997-ci ildə doğulmuş və çağırış gününədək 18 yaşı tamam olmuş, habelə 1980-1996-cı illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşlarının 2015-ci il iyulun 1-dən 30-dək hərbi xidmətə çağırılması mərasimləri yüksək səviyyədə təşkil olunur. Bu gün Milli Ordumuzda yaradılmış hərtərəfli şərait və möhkəm nizam-intizam hər bir çağırışyaşlı gənci Vətən qarşısında öz borcunu ləyaqətlə yerinə yetirməyə sövq edir.

Bildirilib ki, ordu quruculuğuna göstərilən dövlət qayğısı Silahlı Qüvvələrimizin qüdrətlənməsinə səbəb olub. Bu gün Azərbaycanın güclü və qüdrətli ordusu vardır. Ordumuz istənilən anda işğal altında olan torpaqlarımızı azad etməyə qadirdir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə son illərdə orduya ayrılan xərclərin artırılması, ordu quruculuğu sahəsində görülən işlər, hərbi sənaye kompleksinin inkişaf etdirilməsi, ordunun müasir əsaslarla komplektləşdirilməsi bunu deməyə əsas verir.

Mərasim Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başa çatıb.

Həmin gün Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Culfa Rayon Şöbəsində də gənclərin ordu sıralarına yolasalma mərasimi keçirilib.

## Meliorasiya və su təsərrüfatı sisteminin yaxşılaşdırılması işləri uğurla davam etdirilir

***Muxtar respublikada torpaqların su təminatının və onların meliorativ vəziyyətinin yaxşılaşdırılması, sel və daşqın sularına qarşı mübarizə işləri diqqət mərkəzində saxlanılır.***



Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi tərəfindən 2015-ci ilin iyun ayında da müvafiq tədbirlər görülmüş, hidrotexniki qurğularda tələbata uyğun təmir-bərpa işləri aparılmışdır. Belə ki, muxtar respublikanın müxtəlif ərazilərini əhatə etməklə 6,5 kilometr kanal, 3 kilometr kollektor, 43,7 kilometr ara arxları lildən təmizlənmiş, 8 kilometr içməli su, 1,8 kilometr suvarma xətti və 2 kilometr kaptaj təmir olunmuş, 3,5 kilometr yeni içməli su, 3,2 kilometr yeni suvarma xətti çəkilmiş, 300 metr uzunluğunda yeni kaptaj tikilmiş və 7,6 kilometr məsafədə sahilbərkitmə işləri aparılmışdır. Bu dövrdə Vayxır sol sahil kanalının altında tikilən mexaniki suvarma şəbəkəsində 17 kilometr suvarma və 600 metr drenaj xətti çəkilmiş, ərazidə 1800 hidrant quraşdırılmışdır.

Suvarma suyuna olan tələbatın ödənilməsində subartezian quyularının və kəhrizlərin gücündən də geniş istifadə olunur. Ona görə də bu hidrotexniki qurğuların normal istismarına diqqət yetirilir. Ötən ay ərzində Şərur rayonunun Çəmənli və Ələkli kəndlərində subartezian quyuları qazılmış, rayonun Qarahəsənli kəndindəki 2 subartezian quyusunda, həmçinin Kəngərli rayonunun Şahtaxtı kəndindəki və Sədərəkdəki subartezian quyularında bərpa işləri davam etdirilmişdir. Şərur rayonunun Maxta kəndində isə yeni subartezian quyusunun qazılması işlərinə başlanıb. Ümumiyyətlə, bu dövrdə 81 ədəd subartezian quyusu təmir olunmuş, 14 ədəd subartezian quyusunda yeni nasos quraşdırılmışdır. Kəhrizlər İdarəsinin kollektivi isə 6 kəhrizdə təmir işlərini davam etdirmişdir.

Komitə tərəfindən həyata keçirilən tədbirlər sırasında içməli su təminatının yaxşılaşdırılması da prioritet istiqamət təşkil edir. Əhalinin içməli su təminatının yaxşılaşdırılması məqsədilə ötən ayda da müvafiq işlər görülmüş, Culfa şəhərdaxili şəbəkədə 39 evin kanalizasiyası əsas kanalizasiya xəttinə birləşdirilmiş, 4 evə içməli su xətti çəkilərək sayğac quraşdırılmışdır. Bundan başqa, Naxçıvan şəhərində, Culfa və Şahbuz rayonlarındakı çirkab sutəmizləyici qurğuların və su anbarının tikintisi, eləcə də avadanlıqların quraşdırılması işləri davam etdirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti***

## Maarifləndirici tədbir keçirilmişdir



***Dünən Naxçıvan Şəhər Prokurorluğunun təşkilatçılığı ilə Qaraçuq kəndində torpağın mühafizəsi, həmçinin təbii qazdan və elektrik enerjisindən istifadə edərkən təhlükəsizlik qaydalarına əməl olunması ilə bağlı maarifləndirici tədbir keçirilmişdir.***

Tədbiri Naxçıvan Şəhər İcra Hakimiyyətinin şöbə müdiri İsmayıl Gülməmmədov açaraq keçirilən tədbirin mahiyyəti haqqında məlumat vermişdir.

Naxçıvan şəhər prokurorunun böyük köməkçisi, II dərəcəli hüquqşünas Əqil Əliyev çıxış edərək bildirmişdir ki, Azərbaycan Respublikasının torpaq qanunvericiliyi Torpaq Məcəlləsindən, “Torpaq islahatı haqqında” Azərbaycan Respublikasının Qanunundan və digər normativ-hüquqi aktlardan ibarətdir. Yerin təkindən, su obyektlərindən, meşədən, bitki və heyvanlar aləmindən, mədəni və təbii landşaftlardan, atmosfer havasından istifadə və onların mühafizəsi üzrə münasibətlər Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə tənzimlənir. Qeyd olunmuşdur ki, torpaqların mühafizəsi onlardan səmərəli istifadə edilməsi, daha qiymətli torpaqların kənd təsərrüfatı və meşə təsərrüfatı dövriyyəsindən əsassız çıxarılmasına yol verilməməsi, onların zərərli təbii və antropogen təsirlərdən qorunması, habelə torpaqların münbitliyinin, meşə fondunun bərpası və artırılması məqsədilə həyata keçirilən hüquqi, təşkilati, iqtisadi və digər tədbirlər sistemindən ibarətdir. Torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri torpaqların mühafizəsi sahəsində müvafiq tədbirlər həyata keçirməlidirlər. Bu tədbirlərə torpağın münbitliyinin mühafizəsi üçün onu su və külək eroziyasından, şoranlaşmadan, səhralaşmadan, müxtəlif məişət tullantılarından, kimyəvi radioaktiv maddələrlə çirklənmədən və digər dağıdıcı proseslərdən qorunması aiddir.

Vurğulanmışdır ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin “Ekoloji cinayətlər” adlanan 28-ci fəslində torpaqları korlamağa görə cinayət məsuliyyətini nəzərdə tutan, eyni zamanda Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində torpaqların zibillənməsi, korlanması və sairlə bağlı yaranan münasibətləri tənzimləyən normalar var.

Naxçıvan şəhər prokurorunun köməkçisi, II dərəcəli hüquqşünas Ramin Tağıyev təbii qazdan və elektrik enerjisindən istifadə edərkən bütün təhlükəsizlik qaydalarına ciddi əməl olunmasının vacibliyindən danışmışdır. Bildirilmişdir ki, təbii qazdan və elektrik enerjisindən düzgün istifadə etməmək bədbəxt hadisələrin baş verməsi ilə nəticələnir, eyni zamanda inzibati və cinayət məsuliyyətinə səbəb olur.

Tədbirdə hər iki mövzu üzrə yol verilmiş xətalara görə qanunvericilikdə nəzərdə tutulmuş cəzalar haqqında məlumat verilmiş, tədbir iştirakçılarının sualları cavablandırılmışdır.

Tədbirə Naxçıvan Şəhər İcra Hakimiyyətinin şöbə müdiri İsmayıl Gülməmmədov yekun vurmuşdur.

**Səbuhi HƏSƏNOV**




## Naxçıvan Beynəlxalq Hava Limanında xidmət nümunəvi təşkil olunmuşdur

İyun ayında da hava nəqliyyatı sisteminin inkişafı, Naxçıvan Beynəlxalq Hava Limanının maddi-texniki bazasının gücləndirilməsi işləri davam etdirilmiş, əhaliyə nümunəvi xidmət göstərilmişdir.

Ötən ay ərzində yerli hava xətti ilə 22 min 540 sərnişin, 410 min 18 kiloqram baqaj, 141 min 571 kiloqram yük və 1773 kiloqram poçt daşınması həyata keçirilmişdir. Beynəlxalq hava xətti ilə Naxçıvan-Moskva istiqaməti üzrə 405 sərnişin, 6 min 474 kiloqram baqaj, Naxçıvan-İstanbul reysi ilə 479 sərnişin və 5 min 361 kiloqram baqaj daşınmışdır.

Hava limanında uçuşların təhlükəsiz təşkili məqsədilə mütəmadi tədbirlər görülür. Ötən ay da bu məsələ diqqət mərkəzində saxlanılmış, uçuş-enmə zolağı və perronda təmir işləri aparılmış, hava gəmilərinə müntəzəm texniki qulluq edilmişdir. Aerovağzal binasında yenidənqurma işləri davam etdirilmişdir.

Ötən dövrdə elektrik və işıq təchizatı sahəsində də cari təmir işləri görülmüş, dizel generatorlarına, uçuş-enmə zolağında işıq siqnal sistemlərinə texniki xidmət göstərilmiş, güc transformatorlarının çıxış cərəyanları yoxlanılmışdır. Hava limanının bazasında olan maşın-mexanizmlərin normal istismarına da diqqət göstərilmiş, xidməti avtomobillərin və digər texnikaların təmirə ehtiyacı olan hissələri yenisi ilə əvəz edilmişdir.

Əməkdaşların iş şəraitinin yaxşılaşdırılması ilə yanaşı, peşəkarlıq səviyyəsinin artırılmasına da diqqət yetirilir. Ötən ay yanğın təhlükəsizliyi və qəza-xilasetmə komandası yanğın təlimlərində iştirak etmiş, işçilərlə yanğına qarşı profilaktik söhbət aparılmışdır. Aviasiya təhlükəsizliyinin təmin olunması qarşıda duran əsas vəzifələrdəndir. Təhlükəsizlik personalları şəxslərə, baqaja və yüklərə ciddi nəzarət etmiş, yoxlamalar zamanı bir neçə qadağan olunmuş əşya aşkar edilmiş və aktlaşdırılaraq aidiyyəti orqana təhvil verilmişdir.

***Naxçıvan Beynəlxalq Hava Limanı***

## Fövqəladə halların tibbi-sanitar nəticələrinin aradan qaldırılmasına həsr olunmuş konfrans

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi və muxtar respublika Səhiyyə Nazirliyi tərəfindən Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasında “Fövqəladə halların tibbi-sanitar nəticələrinin aradan qaldırılmasına tibb müəssisələri hazır olmalıdır” mövzusunda konfrans keçirilib.***



Konfransı giriş sözü ilə muxtar respublika Səhiyyə nazirinin müavini Sona Məmmədova açaraq səhiyyə müəssisələrinin fövqəladə halların tibbi-sanitar nəticələrinin aradan qaldırılmasına hazırlığı istiqamətində həyata keçirilən işlərdən danışıb.

Sonra Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə işinin təşkili şöbəsinin rəisi, polkovnik Emin Qasımovun “Fövqəladə halların tibbi-sanitar nəticələrinin aradan qaldırılmasında tibb müəssisələrinin rolu” mövzusunda məruzəsi dinlənilib. Məruzədə qeyd edilib ki, qəza-xilasetmə və digər təxirəsalınmaz tədbirlər fövqəladə hal zonasında, ilk növbədə, yerinə yetirilən işlərin məcmusudur. İnsanların xilas edilməsi və onlara yardım olunması, zədələnmə ocaqlarının lokallaşdırılması və yayılmasının, zədələyici amillərin əmələ gəlməsinin qarşısının alınması, maddi və mədəni sərvətlərin xilas edilməsi və mühafizəsi, həyat fəaliyyətinin minimal ehtiyaclarının təmin edilməsi bu işlərə aiddir. Fövqəladə halların tibbi-sanitar nəticələrinin aradan qaldırılması əhəmiyyətli məsələdir və bu prosesdə tibb müəssisələrinin üzərinə mühüm vəzifələr düşür. Ona görə də hər bir səhiyyə işçisi bu haqda məlumatlı olmalıdır.

Sonra məruzə ətrafında çıxışlar olub. Çıxışlarda muxtar respublikanın mülki müdafiə işinin təşkili vəziyyəti, tibb müəssisələrində həkim, orta tibb işçilərinin radiasiya təhlükəsizliyinin təmin edilməsi, fövqəladə halların tibbi-sanitar nəticələrinin aradan qaldırılmasına cəlb olunan tibb qüvvələrinin hazırlığına qoyulan tələblər, səhiyyə müəssisələrində mülki müdafiə tədbirlərinin planlaşdırılması və keçirilməsi üzrə müəyyən edilmiş qaydalar, obyekt mülki müdafiə qüvvələrinin hazırlığına qoyulan tələblər haqda söhbət açılıb.

Konfransa Naxçıvan Muxtar Respublikası Səhiyyə nazirinin müavini Sona Məmmədova yekun vurub.

**Xəbərlər şöbəsi**

# dünən — Naxçıvan Muxtar Respublika Stadionu — bu gün





## İlk Avropa Oyunlarının bürünc mükafatçısı, gənc boksçu Tayfur Əliyev ilə təhsil aldığı ali məktəbdə görüş keçirilib

***Naxçıvan Dövlət Universitetində birinci Avropa Oyunlarının bürünc mükafatçısı, həmin ali məktəbin Bədən tərbiyəsi və idman ixtisası üzrə I kurs tələbəsi, gənc boksçu Tayfur Əliyevlə görüş keçirilib.***

Görüşdə universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2015-ci il 29 iyun tarixli Sərəncamı ilə gənc boksçu Tayfur Əliyevin "Tərəqqi" medalı ilə təltif olunması, eyni zamanda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun birinci Avropa Oyunlarındakı nailiyyətlərinə görə Tayfur Əliyevə "Naxçıvan Muxtar Respublikasının 85 illiyi" yubiley qızıl medalını təqdim etməsi ölkədə idmanın inkişafına və gənclərə göstərilən böyük diqqət və qayğının bariz ifadəsidir. Rektor gənc yaşında qazandığı bütün bu yüksək nailiyyətlərə görə rəhbərlik etdiyi ali təhsil ocağının çoxsaylı kollektivi adından Tayfur Əliyevi təbrik edib.

Universitetin müəllimi, boks üzrə idman ustası, birinci Avropa Oyunlarının bürünc mükafatçısı Tayfur Əliyevin ali təhsil ocağındakı ixtisas müəllimi Valeh Əlixanov 4 yaşından boksla məşğul olan gənc boksçunun bu günə qədər qazandığı idman uğurlarına nəzər salıb, keçirdiyi yarışlar haqqında məlumat verib. Bildirilib ki, Tayfur Əliyev "Bakı-2015" ilk Avropa Oyunlarında boks yığmamızın heyətində kişilər arasında 56 kiloqram çəki dərəcəsində mübarizə aparıb. Birinci Avropa Oyunlarının bürünc mükafatçısı, tələbə Tayfur Əliyev 2015-ci ilin oktyabr ayında Qətər Əmirliyində keçiriləcək dünya çempionatında iştirak edəcək.

"Bakı-2015" birinci Avropa Oyunlarının bürünc mükafatçısı Tayfur Əliyev qələbə sevincini bölüşüb, ona dəstək olanlara minnətdarlığını bildirib: "Cənab Prezidentimiz İlham Əliyevin Danimarka idmançısı Frederik Yansenlə keçirilən ikinci görüşümü şəxsən izləməsi mənə ayrı bir güc, enerji, stimul verdi. Azərbaycan Respublikası Prezidentinin yarışlardan sonra qaliblərlə görüşməsi və bizi təltif etməsi idmançılarımıza göstərilən böyük qayğının təzahürü idi. Dövlətimizin idmançılara göstərdiyi yüksək qayğıdan bəhrələnərək bundan sonrakı yarışlarda, həmçinin "Rio-de-Janeyro- 2016" Olimpiya Oyunlarında Azərbaycan bayrağının dalğalanması üçün mübarizə aparacağam".

Sonda rektor, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov "Bakı-2015" ilk Avropa Oyunlarında bürünc medal qazanmış gənc boksçuya pul mükafatı və hədiyyə təqdim edib, ona gələcək yarışlarda uğurlar arzulayıb.

**Mina QASIMOVA**

## Sağlamlıq imkanları məhdud uşaqlar müalicə üçün Türkiyəyə göndərilib

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən sağlamlıq imkanları məhdud 5 uşaq valideynlərinin müşayiəti ilə Türkiyə Respublikasının Dənizli şəhərində fəaliyyət göstərən Nobel Tibb Mərkəzinə göndərilib. İyulun 10-da həmin uşaqlar Naxçıvan Beynəlxalq Hava Limanından Bakıya, ölkəmizin paytaxtından isə Türkiyə Respublikasına yola düşüblər.***



Müalicəyə yola salınan sağlamlıq imkanları məhdud uşaqların valideynlərindən biri – Babək rayon Güznüt kənd sakini Fatma İbrahimova ilə söhbətimizdə o bildirdi ki, övladı Nərmin İbrahimli serebral iflic xəstəliyindən əziyyət çəkir. Birinci dəfədir ki, övladı müalicə üçün xarici ölkəyə göndərilir. Onlara övladlarının müalicə alacağı səhiyyə ocağı haqda ətraflı məlumat verilib və bildirilib ki, bu səhiyyə ocağı Türkiyənin ən tanınmış müalicə müəssisələrindən biridir. Ona görə övladının şəfa tapacağına çox ümidlidir. Belə imkanın yaradılmasına görə dövlətimizə minnətdardır.

Naxçıvan şəhərinin Qaraçuq kənd sakini Maral Salahova övladı Qurban Salahovun müalicəyə göndərilməsini dövlətimizin sağlamlıq imkanları məhdud uşaqlara və onların ailələrinə göstərilən həm maddi, həm də mənəvi dəstək kimi dəyərləndirdi. Dedi ki, belə tədbirlər uşaqların səhhətində dönüş yaratmaqla bərabər, onların ailələrinə də dəstək olur. Övladlarının gələcəyinin dövlətimizin təminatında olduğuna bildirən Maral Salahova bu xeyirxah addımın minnətdarlıqla qarşılandığını dedi.

Məlumat üçün bildirək ki, sağlamlıq imkanları məhdud uşaqlar reabilitasiya mərkəzində 20 gün fizioterapevtik üsullarla müalicə olunacaq. Analoji tədbir cari ilin mart ayında təşkil edilmişdi və məhdud fiziki imkanlı 10 nəfər müalicə üçün Türkiyə Respublikasına göndərilmişdi.

**✍ Səbuhi HÜSEYNOV**

## Məlumat

Muxtar respublikada fəaliyyət göstərən kənd təsərrüfatı məhsulları istehsalçılarının nəzərinə çatdırılır ki, tələbatdan artıq istehsal etdikləri meyvə və tərəvəz məhsullarını emal müəssisəsi və soyuducu anbarlar aşağıda qeyd olunan qiymətlərlə qəbul edir.

- *kartof I növ – 40 qəpik*
- *kartof II növ – 30 qəpik*
- *soğan I növ – 35 qəpik*
- *soğan II növ – 25 qəpik*
- *alma I növ – 50 qəpik*
- *şaftalı II-III növ – 22 qəpik*
- *ərik II-III növ – 15 qəpik*

Məlumat üçün qeyd olunan məhsulları tədarük edən emal müəssisəsi və soyuducu anbarların ünvanını, əlaqə telefonlarını bildiririk.

| S/S | Hüquqi və fiziki şəxsin adı | Ünvanı | Əlaqə nömrələri |
|---|---|---|---|
| 1. | "Naxçıvan Meyvə-Tərəvəz Məhsulları" MMC | Naxçıvan şəhəri, Ə.Qəmküsar küçəsi | (050) 516-45-61, (050) 893-45-61, (060) 540-94-64 |
| 2. | "Gəmiqaya Holdinq" Şirkətlər İttifaqının "Qida Məhsulları Sənaye Kompleksi" MMC | Naxçıvan şəhəri, N.Tusi küçəsi | (051) 831-85-85 (060) 540-28-95 |
| 3. | "Yusifoğlu" firması | Şərur rayonu, Məmmədsabir kəndi | (070) 222-13-67 (050) 560-02-02 |
| 4. | Fiziki şəxs Ramiz Həsənov | Şərur rayonu, Danyeri kəndi | (050) 213-55-54 (070) 213-55-54 |
| 5. | Fiziki şəxs Əli Musayev | Şahbuz şəhəri, "28 May" küçəsi | (050) 678-28-40 (036) 543-41-02 |
| 6. | Fiziki şəxs Müsrza Əliyev | Ordubad şəhəri, N.Rzayev küçəsi | (050) 325-87-77 |

**Qeyd:** Kənd təsərrüfatı məhsullarının istehsalçıları öz məhsullarını mövcud anbarlarda saxlamaq üçün soyuducu anbarların sahibkarlarına müraciət edib icarə müqaviləsi bağlayaraq məhsulları anbarlarda saxlaya bilərlər.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi***

## "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində əl işləri mağazası açılıb



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2009-cu il 7 fevral tarixli "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" Sərəncamında deyilir: "Azərbaycanın qədim Naxçıvan torpağında yayılmış el sənəti nümunələri böyük və zəngin bir tarixi mərhələni, mədəni inkişaf dövrünü əhatə edir. Qədim sivilizasiyaya və müasir mədəni inkişafa layiqli töhfə olan bu yaradıcılıq nümunələri xalqımıza xas milli xüsusiyyətləri və xarakteri, adət-ənənələri, həyat və məişət tərzini özündə cəmləşdirərək müasir dövrdə parlaq şəkildə nümayiş etdirir".

Günümüzdə xalq tətbiqi sənət növünün və əl işlərinin satışı onların təbliğ olunmasında stimulverici amildir. Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində əl işləri mağazasının fəaliyyətə başlaması da bu məqsədə xidmət edir.

Mağazada muxtar respublikada yaşayan istedadlı qadınların tikmə, toxuma, taxta üzərində oyma nümunələri, böyüklər və uşaqlar üçün geyim dəstləri, məişət və məktəbdə istifadə olunan ləvazimatlar, milli geyimlər, milli üslubda bəzədilmiş gəlinciklər, süni güllərdən və kağızdan hazırlanan kompozisiyalar, muncuq və daş-qaşlarla hazırlanmış qadın bəzək əşyaları məmulatlarından ibarət əl işləri satılır.

Müxtəlif növ sap, parça, muncuq, pilək və digər materiallardan hazırlanan tikmə və toxuma sənətinin təsvir vasitəsi olduqca zəngin və rəngarəngdir. Bu gün muxtar respublikada ailələrin çoxunda nənələrdən yadigar qalan zərif tikmələrə rast gəlmək mümkündür. Günümüzdə çox dəyərli sayılan bu nümunələrin nəsildən-nəslə keçərək bizə gəlib çatmasında onları qoruyan insanların əməyi danılmazdır. Bu baxımdan qadınların əl işlərindən ibarət mağazanın fəaliyyətə başlaması mühüm əhəmiyyət daşıyır.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 537